Hüseyn Kürdoğlu

# Seçilmiş əsərləri

II cild

İkiliklər ✦ Üçlüklər
Bayatılar ✦ Dördlüklər
Qəzəllər ✦ Poemalar

Bakı – «Sabah» – 2011

***

Ey Füzuli, tilsimin büllur bulaq eylər məni,
Hər daşı gövhər saçan bir varlı dağ eylər məni.

Min səxavət göstərər dünya görən təbin sənin,
Hər ləziz nemət ilə hər gün qonaq eylər məni.

Nazicək, yüngül kitabdım, gizlənərdim xəzridən,
İltifatın artırar, min bir varaq eylər məni.

Bir dilim şölə saçan şamlar kimi yanmaq nədir,
Sözlərin söz mülkünə bir çilçıraq eylər məni.

Bir məramım yox mənim şagirdin olmaqdan savay,
Layiq olsam axtarar, aləm soraq eylər məni.

Sən ki sevda bəhrisən, qəlbində gövhər olmasam,
Dalğalar çör-çöp kimi tullar, qıraq eylər məni.

Sənmisən türfə sənəmlər sərrafı, ey mürşüdüm,
Verdiyin mey badəsi ölsəm də sağ eylər məni.